Aqrar Xidmətlər Agentliyi

# MƏFTİL QURDU

## (Elateridae)



088-588

axa.gov.az

## Zərərverici haqqında

Sürfələrı ən çox buğda, arpa, qarğıdalı, kartof, çuğundur, günəbaxan, tütün, pambıq bitkilərini zədələyir. Şıqqıldaq böcəklərinin ən sevimli qidası sürünən ayrıqotu alağının kökləridir. Bu alaq otunun sahədə əhəmiyyətli miqdarda olması, həmin ərazidə zərərvericinin çoxalmasına zəmin yaradır. Zərərverici dənli bitkilərin nəinki kök sistemini zədələyir, hətta səpilmiş toxumları belə təmamilə yeyir. Zədələnmiş meyvələri uzun müddət saxlamaq mümkün olmur. Sürfələrin yaşaması üçün optimal temperatur +20$^0$C, optimal rütubət isə 50-60% hesab olunur. Bu səbəbdən də, məftil qurdlarının taxıl bitkilərinə vurduğu zərər quraqlıq illərdə az, rütubətli illərdə isə çox olur.

## Mübarizə tədbirləri

- Torpaq ön kotancıqlı kotanla 27-30 sm dərinliyində şumlanmalı;
- Şum, əsasən, taxıl və qarğıdalı yığıldıqdan sonra iyul-avqust aylarında aparılmalı;
- İki-üç sahəli növbəli əkin dövriyyəsinin tətbiqi zərərvericidən azad olmağa köməklik edir.

**Təsiredici maddəsi** Toxumlar səpinqabağı İmidacloprid 350 q/l, İmidokloprid 70%, Xlorpirifos etil 250 q/kq, Tiametoksam 262.5q/l+, Difenokonazol 25q/l+, Fludoksanil 25q/l, Teflutrin 1.5 %-(10-15 kq/ha) preparatlarla dərmanlanmalı.



**Yetkin fərd**



**Sürfə və zədəsi**